***İBTİDAİ TƏHSİLİN PEDAQOGİKASI VƏ METODİKASI***
***PEDAGOGY AND METHODS OF PRIMARY EDUCATION***
***ПЕДАГОГИКА И МЕТОДИКА НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ***

*UOT 373.3*

***Məhbubə Ərziman qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*elmlər doktoru proqramı üzrə dissertantı*
*https://orcid.org/0009-0009-4916-4982*
*E-mail: pedagogmm57@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).142-146*

# MÜASİR PEDAQOJİ İDEYALARA ƏSASƏN İBTİDAİ TƏHSİL PROSESİNİN TƏŞKİLİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Mahbuba Arziman Mammadova***
*Doctoral Candidate (Doctor of Sciences program) in the specialty of*
*Azerbaijan State Pedagogical University*

# ORGANIZATION AND DEVELOPMENT DIRECTIONS OF THE PRIMARY EDUCATION PROCESS BASED ON MODERN PEDAGOGICAL IDEAS

***Махбуба Арзиман гызы Мамедова***
*диссертант по программе доктора наук*
*Азербайджанского Государственного Педагогического Университета*

# ОРГАНИЗАЦИЯ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ПРОЦЕССА НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ НА ОСНОВЕ СОВРЕМЕННЫХ ПЕДАГОГИЧЕСКИХ ИДЕЙ

**Xülasə**. Müasir pedaqoji ideyalara əsasən ibtidai təhsilin təşkili şagirdyönlü, fəal və fərdi yanaşmaya əsası olmalıdır. Bu yanaşmalar təlimin yalnız bilik ötürülməsi ilə məhdudlaşmamasını, şagirdlərin idrak fəallığının, məntiqi təfəkkürünün və sosial bacarıqlarının inkişafını təmin edir. Müasir pedaqoji nəzəriyyələrə görə, təlim prosesi şagirdlərin yaş xüsusiyyətlərinə uyğun qurulmalı, onların şəxsi təcrübəsi və maraqları nəzərə alınmalıdır. İnteraktiv metodların və əməkdaşlıq mühitinin tətbiqi şagirdlərin öyrənməyə motivasiyasını artırır və onların müstəqil düşünmə qabiliyyətini inkişaf etdirir. Müasir ibtidai təhsil prosesinin əsas məqsədi hərtərəfli inkişaf etmiş, yaradıcı və fəal şəxsiyyətin formalaşdırılmasına yönəlmişdir.
***Açar söz:*** *şagirdyönlü yanaşma, fəal öyrənmə, fərdi yanaşma, idrak inkişafı, məntiqi təfəkkür, əməkdaşlıq, motivasiya*

**Abstract.** The organization of the primary education process based on modern pedagogical ideas relies on a student-centered, active, and individualized approach. These approaches ensure that teaching is not limited to the transmission of knowledge, but also promotes the development of students' cognitive activity, logical thinking, and social skills. According to modern pedagogical theories, the learning process should be structured in accordance with students' age characteristics, as well as their personal experiences and interests. The use of interactive methods and the creation of a collaborative environment increase students' motivation to learn and foster their independent thinking. The main goal of modern primary education is to develop a well-rounded, creative, and active personality.
***Keywords:*** *student-centered approach, active learning, individual approach, cognitive development, logical thinking, collaboration, motivation*

**Аннотация.** Организация процесса начального образования на основе современных педагогических идей опирается на ученико-ориентированный, активный и индивидуальный подход. Эти под-

ходы обеспечивают то, что обучение не ограничивается только передачей знаний, а способствует развитию познавательной активности учащихся, их логического мышления и социальных навыков. Согласно современным педагогическим теориям, учебный процесс должен строиться с учетом возрастных особенностей учащихся, их личного опыта и интересов. Применение интерактивных методов и создание среды сотрудничества повышают мотивацию учащихся к обучению и развивают их самостоятельное мышление. Основной целью современного начального образования является формирование всесторонне развитой, творческой и активной личности.

***Ключевые слова:*** *ученико-ориентированный подход, активное обучение, индивидуальный подход, когнитивное развитие, логическое мышление, сотрудничество, мотивация*

Tərbiyə təcrübəsi öz kökləri ilə insan sivilizasiyasının dərin qatlarına qədər gedib çıxır . Deyə bilərik ki, insan cəmiyyəti ilə eyni zamanda meydana çıxmışdır. O dövrlərdə uşaqlar heç bir pedaqoji yanaşma olmadan tərbiyə edilib, sistemli şəkildə mövcudluğu barədə belə düşünülmürdü. Ümumilikdə tərbiyə yaşlı nəslin əldə etdiyi bilik, bacarıq və vərdişləri özündən sonrakı nəslə ötürməsi prosesidir. Tərbiyə haqqında nəzəri bilik isə, demək olar ki, fəlsəfə, astronomiya, həndəsə və digər elmlər formalaşdıqdan sonra yaranmışdır. İnsan tərbiyəsinin sistemləşdirilməsi, dəyərlərin şagirdlərə ötürülməsi prosesi özündə dini dəyərləri də əks etdirir.

Tarixi araşdırmalar göstərir ki, bütün elm sahələrinin yaranmasının əsas səbəbi həyatın tələbləri ilə bağlıdır və cəmiyyətin sürətli və ya ləng inkişafı böyüyən nəslin tərbiyəsinin necə qurulmasından asılı olmuşdur.

İbtidai təhsil pedaqogikası baxımından bu yanaşma xüsusilə əhəmiyyətlidir, çünki uşaqların ilkin bilik və davranış vərdişləri bu mərhələdə formalaşır. Tarixi təcrübə göstərir ki, erkən yaş dövründə sistemli təlim və tərbiyə metodlarının tətbiqi cəmiyyətin gələcək inkişafını təmin edən əsas amillərdən biridir. Beləliklə, ibtidai təhsil pedaqogikasının tarixi yalnız elmin formalaşması ilə deyil, həm də cəmiyyətin sosial və mədəni tələblərinə uyğun olaraq uşaqların inkişafını təmin etməklə bağlıdır.

Çin, Hindistan, Misir və Yunanıstanda tərbiyə təcrübəsinin ümumiləşdirilməsi və nəzəri əsaslarının yaradılması sahəsində ciddi cəhdlər müşahidə olunmuşdur. O dövrdə təbiət, insan və cəmiyyət haqqında biliklər əsasən fəlsəfədə cəmləşmiş və burada ilk pedaqoji ümumiləşdirmələr aparılmışdır. Avropa tərbiyə sisteminin beşiyi qədim Yunan fəlsəfəsi hesab olunur. Bu sahədə dahi nümayəndələrdən biri olan Demokrit (b.e.ə 460-370) uşaqların tərbiyəsi haqqında kitab tərtib etmiş, insanın tərbiyəsi və şəxsiyyətin formalaşması məsələlərini digər Yunan mütəfəkkirləri – Sokrat, Platon və Aristotel – fəlsəfi əsərlərində inkişaf etdirmişlər. Beləliklə, pedaqogika uzun müddət fəlsəfənin bir hissəsi olmuşdur və yalnız XVII əsrdə müstəqil elm kimi formalaşmağa başlamışdır.

Prof. Fərrux Rüstəmov pedaqogikanın tarixini təhlil etdikdə bu prosesdə çex pedaqoqu Y.A.Komenskinin (1592-1670) ideyalarına əsaslı yer vermişdir. Komenski, xüsusilə ibtidai təhsildə əyanilik, təbiətə uyğunluq prinsipləri və sinif-dərs sistemini tətbiq etməyi təklif edərək pedaqoji nəzəriyyənin əsaslarını yaratmışdır. O, müəllimlərə dərsi uşaqların yaş xüsusiyyətlərinə uyğun qurmağı tövsiyə edir və yazır: "Uşaqların təhsili onların təbiətinə uyğun aparılmalıdır ki, bilik və əxlaq birgə inkişaf etsin."

İngilis filosofu və pedaqoqu Con Lokk (1632-1704) tərbiyə nəzəriyyəsinə xüsusi diqqət yetirmiş və "Tərbiyə haqqında düşüncələr" əsərində insanın əxlaqi və intellektual inkişafının vacibliyini vurğulamışdır. Lokk bildirir ki, uşaqların təlimi onların təcrübəsinə əsaslanmalı, öyrənmə prosesində aktiv iştirakları təmin edilməlidir.

XVIII əsrdə fransız maarifçiləri D. Diderot (1713-1814) və J.J. Russo (1712-1778) ibtidai təhsil sahəsində yeni yanaşmalar irəli sürmüşlər. Onların fikrincə, uşaqların öyrənməsi yalnız sözlərlə deyil, "şeylərlə" – yəni real təcrübə və əşyalar vasitəsilə olmalıdır, çünki bu, idrak fəaliyyətini və təfəkkürü inkişaf etdirir. XVIII əsr fransız maarifçiləri D. Diderot və J.J. Russonun irəli sürdükləri "öyrənmənin sözlə deyil, şeylərlə həyata keçirilməsi" ideyası ibtidai təhsildə xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma şagirdlərin təlim prosesində passiv dinləyici deyil, fəal iştirakçı kimi çıxış etməsini təmin edir və onların bilikləri daha dərindən mə-nimsəməsinə şərait yaradır. İbtidai yaş dövründə uşaqlar abstrakt anlayışları qavramaqda çətinlik çəkdikləri üçün real əşyalar, müşahidə, təcrübə və praktik fəaliyyətlər vasitəsilə öyrənmə onların idrak inkişafına daha uyğun hesab olunur. [4]

Fikirlərin tətbiqi nəticəsində şagirdlər yalnız müəllimin dediklərini əzbərləmir, əksinə, gördükləri, toxunduqları və təcrübədən keçirdikləri vasitəsilə bilik əldə edirlər. Məsələn, təbiət mövzusu izah olunarkən yalnız kitabdan oxumaq əvəzinə, bitkilərin sinfə gətirilməsi və ya məktəb həyətində müşahidə aparılması şagirdlərin mövzunu daha yaxşı anlamasına səbəb olur. Bu cür yanaşma onların məntiqi təfəkkürünü, müşahidə qabiliyyətini və nəticə çıxarma bacarığını inkişaf etdirir.

Bu ideya ibtidai təhsildə fəal öyrənmə mühitinin formalaşmasına xidmət edir. Şagirdlər praktik fəaliyyətlər zamanı suallar verir, müzakirələr aparır və öz fikirlərini ifadə etməyə çalışırlar. Bu isə onların nitq bacarıqlarının, ünsiyyət mədəniyyətinin və özünə inamının inkişafına müsbət təsir göstərir. Müəllim isə bu prosesdə sadəcə məlumat verən deyil, istiqamət verən və öyrənməni təşkil edən şəxs kimi çıxış edir.

Adıgüzel, Tatlı Dalioğlu və Ergünay (2017) öz tədqiqatlarında həm kəmiyyət (anket), həm də keyfiyyət (fokus qrup müsahibələri) metodlarını birləşdirən paralel qarışıq dizayndan istifadə edərək, ibtidai məktəbin funksiyalarını müəllim rəyləri əsasında dərindən təhlil etmişlər. [7]

Beləliklə, Diderot və Russonun irəli sürdüyü bu yanaşma ibtidai təhsildə şagirdlərin idrak fəallığını artırır, öyrənməni daha maraqlı və effektiv edir və onların şəxsiyyət kimi hərtərəfli inkişafına güclü təkan verir.

İbtidai təhsil pedaqogikasında böyük İsveçrə pedaqoqu İ.Q. Pestalotsinin (1746–1827) adı xüsusilə önəmlidir. Pestalotsi müəllimlərə uşaqların mütərəqqi təlim nəzəriyyəsi və əxlaqi tərbiyəsinə diqqət yetirməyi tövsiyə etmiş və vurğulamışdır ki, “Təhsil yalnız bilik vermək deyil, həmçinin uşağın ürək və ağılını eyni vaxtda inkişaf etdirməkdir.” Onun ideyaları bu gün də ibtidai təhsil pedaqogikasının əsas prinsipləri arasında yer alır. İ.Q. Pestalotsinin “təhsil yalnız bilik vermək deyil, uşağın ürək və ağılını eyni vaxtda inkişaf etdirməkdir” ideyası ibtidai təhsildə xüsusi əhəmiyyətə malikdir, çünki bu mərhələdə uşağın həm intellektual, həm də mənəvi-emosional inkişafı paralel şəkildə formalaşır. [1]

İbtidai sinif yaş dövründə uşaqlar yalnız oxumaq, yazmaq və hesablamaq kimi bacarıqlar qazanmır, eyni zamanda onların xarakteri, davranışı, dəyərləri və münasibətləri də formalaşır. Bu baxımdan Pestalotsinin yanaşması müəllimdən tələb edir ki, o, dərsi yalnız məlumat ötürmək kimi deyil, uşağın şəxsiyyətini formalaşdıran kompleks proses kimi təşkil etsin.

Bu ideyanın tətbiqi şagirdlərdə balanslı inkişafın təmin olunmasına xidmət edir. Məsələn, müəllim dərs zamanı yalnız tapşırığın düzgün cavabını tələb etməklə kifayətlənmir, eyni zamanda şagirdlərin bir-birinə münasibətinə, davranışına, əməkdaşlığına diqqət yetirir. Belə yanaşma nəticəsində uşaqlarda məsuliyyət, hörmət, mərhəmət, səbir kimi mənəvi keyfiyyətlər formalaşır. Bu isə onların gələcək sosial həyatında uğurlu və sağlam münasibətlər qurmasına zəmin yaradır.

Pestalotsinin ideyası ibtidai təhsildə fərdi yanaşmanın və fəal öyrənmənin əhəmiyyətini artırır. Müəllim şagirdlərin yalnız bilik səviyyəsini deyil, onların emosional vəziyyətini, maraqlarını və qabiliyyətlərini də nəzərə alaraq təlim prosesini qurur. Bu isə uşaqların dərsə marağını artırır, onların öyrənməyə daha həvəslə yanaşmasına səbəb olur.

Bu yanaşma müəllimin rolunu da dəyişir: müəllim yalnız bilik verən şəxs deyil, eyni zamanda tərbiyəçi, yönləndirici və inkişaf etdirici funksiyanı yerinə yetirir. O, şagirdlərə düzgün davranış nümunəsi göstərir, onların daxili potensialını üzə çıxarmağa kömək edir və şəxsiyyət kimi inkişafına dəstək olur.

Beləliklə, Pestalotsinin ideyası ibtidai təhsildə təlim və tərbiyənin vəhdətini təmin edir, şagirdlərin yalnız bilikli deyil, eyni zamanda mənəvi cəhətdən yetkin, sosial baxımdan fəal və harmonik inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına xidmət edir.

Müasir ibtidai təhsildə müxtəlif pedaqoji ideyalar təlim prosesinin daha səmərəli və şagirdyönlü təşkilinə xidmət edir. Bu ideyalar arasında John Dewey-in “edərək öyrənmə” yanaşması xüsusi yer tutur. O hesab edirdi ki, şagirdlər yalnız nəzəri biliklərlə deyil, praktik fəaliyyət vasitəsilə daha yaxşı öyrənirlər. Bu yanaşma ibtidai sinifdə dərsin həyatla əlaqələndirilməsini və uşaqların aktiv iştirakını təmin edir.

Lev Vıgotskinin “yaxın inkişaf zonası” nəzəriyyəsinə görə, uşaq müəyyən tapşırıqları təkbaşına yerinə yetirə bilməsə də, müəllimin və ya yoldaşlarının köməyi ilə onları mənimsəyə bilir. Bu, ibtidai təhsildə əməkdaşlıq mühitinin və müəllim dəstəyinin əhəmiyyətini artırır.

Jan Piajenin koqnitiv inkişaf nəzəriyyəsi göstərir ki, uşaqların düşünmə qabiliyyəti yaşa uyğun mərhələlərlə inkişaf edir. Buna görə də ibtidai sinifdə təlim uşaqların yaş xüsusiyyətlərinə uyğun qurulmalı, sadədən mürəkkəbə doğru inkişaf etməlidir.

Jerom Brunerin kəşf edərək öyrənmə ideyasına əsasən, şagirdlər bilikləri hazır şəkildə qəbul etmək əvəzinə, özləri araşdıraraq əldə etməlidirlər. Bu yanaşma onların məntiqi təfəkkürünü və müstəqil düşünmə bacarıqlarını inkişaf etdirir.

Hovard Gardnerin çoxşaxəli intellekt nəzəriyyəsi isə göstərir ki, hər bir uşağın fərqli qabiliyyətləri mövcuddur. Bu səbəbdən ibtidai təhsildə təlim prosesi müxtəlif fəaliyyətlər üzərində qurulmalı və hər şagirdin fərdi potensialının inkişafına şərait yaradılmalıdır.

Benjamin Blumun taksonomiyası təlim prosesində şagirdlərin yalnız bilik əldə etməsini deyil, həm də həmin bilikləri tətbiq etməsini, təhlil etməsini və qiymətləndirməsini nəzərdə tutur. Bu yanaşma ibtidai təhsildə düşünmə bacarıqlarının mərhələli inkişafını təmin edir.

Mariya Montessorinin pedaqoji ideyalarına görə isə uşaqlar üçün sərbəst və müstəqil öyrənmə mühiti yaradılmalıdır. Bu zaman müəllim daha çox istiqamət verən və müşahidə edən rolunda çıxış edir, şagirdlər isə öz maraqlarına uyğun fəaliyyət göstərirlər.

Müasir dövrdə ibtidai təhsildə pedaqoji yanaşmalar şagirdyönlü və humanist prinsiplərə əsaslanır. K.D.Uşinski müəllimin şəxsiyyətinin və pedaqoji fəaliyyətinin əhəmiyyətini vurğulayır, B.Spok uşağın tərbiyəsində xeyirxahlıq və sosial-emosional dəstəyin önəmini göstərir. M. Montessori isə uşaqların sərbəst və müstəqil öyrənməsi üçün müvafiq mühitin yaradılmasını tövsiyə etmişdir. Bu ideyalar ibtidai təhsildə uşağın həm bilik, həm sosial, həm də emosional inkişafını təmin edən müasir təlim metodlarının əsasını təşkil edir. Məsələn M.Montessorinin uşaqların sərbəst və müstəqil öyrənməsinə dair ideyaları ibtidai təhsildə praktik şəkildə belə görünür: Məsələn, sinifdə uşaqlar öz maraqlarına uyğun fərdi stansiyalarda fəaliyyət göstərirlər – biri rəsm çəkir, digəri sadə riyaziyyat tapşırıqları ilə məşğuldur, üçüncüsü isə bloklar və qurğular vasitəsilə məkan bacarıqlarını inkişaf etdirir. Müəllim bu zaman yalnız müşahidəçi və istiqamətverici rolunda çıxış edir, uşaqlar isə öz maraqları əsasında öyrənir və kəşf edir. Bu yanaşma uşağın bilik əldə etməsini fəallaşdırır, həmçinin onun sosial bacarıqlarını – yoldaşları ilə əməkdaşlıq etməsini və paylaşmasını, eləcə də emosional inkişafını – məsuliyyət və müstəqillik hissini gücləndirir. Beləliklə, Montessori metodu ibtidai sinifdə uşaqların həm akademik, həm sosial, həm də emosional inkişafını təmin edən müasir təlim mühitinin yaradılmasına xidmət edir.

Beləliklə, müasir pedaqoji ideyalar ibtidai təhsildə şagirdin fəallığını artırmağa, onun fərdi xüsusiyyətlərini nəzərə almağa və təlim prosesini daha maraqlı, praktik və effektiv qurmağa yönəlmişdir.

**Problemin aktuallığı** müasir pedaqoji ideyalara əsasən ibtidai təhsil prosesinin təşkili aktualdır, çünki bu mərhələ uşaqların bilik, bacarıq və sosial davranışlarının formalaşdığı əsas dövrdür.

**Problemin elmi yeniliyi** problemin elmi yeniliyi ondan ibarətdir ki, müasir pedaqoji ideyalar əsasında ibtidai təhsil prosesinin şagirdyönlü, fəal və fərdi yanaşmalarla təşkili, həmçinin interaktiv metodların tətbiqi uşaqların idrak, məntiqi və sosial bacarıqlarının inkişafına təsirin sistemli şəkildə araşdırılmasını təmin edir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, müasir pedaqoji ideyaların tətbiqi ilə ibtidai sinif müəllimləri dərs prosesini daha səmərəli təşkil edə, şagirdlərin öyrənməyə marağını artıraraq onların bilik, bacarıq və sosial davranışlarının inkişafına birbaşa töhfə verə bilərlər.

## Ədəbiyyat


1. Abbasov, A.N. Pedaqogika: Dərs vəsaiti / A.N. Abbasov. – Bakı: Mütərcim, 2015. – 360 s.
2. Mehrabov, A.O. Təhsildə səriştəli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri. // Azərbaycan məktəbi, –Bakı, 2007. №1, –112 s.
3. Azərbaycan Müəllimlər İnstitutunda "Təhsildə innovasiyalar haqqında" keçirilmiş elmi praktik konfrans, 25 aprel, –2014.
4. Pedaqogika tarixi: / https://www.anl.az/el/h/hr_pt.pdf
5. İbrahimov, F.N., Hüseynzadə R.L. Pedaqogika: Dərslik [2 cilddə. II cild.] / – Bakı: Mütərcim, –2012. – 548 s. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Firudun-Ibrahimov.-Pedaqogika-II-cild.pdf

6. Aşıkcan, M., & Saban, A. An Action Research on Improving Fluent Reading Skills of Third-Grade Primary School Students. Education and Science, 46(205), –2020. –19-47. https://doi.org/10.15390/EB.2020.9015
7. Adıgüzel, O., Tatlı Dalioğlu, S., & Ergünay, O. (2017). An Investigation of 21st Century Primary Schools' Functions According to Primary School Teachers' Views. *Education and Science, 42*(189), 85-106. https://doi.org/10.15390/EB.2017.6104
8. Əkbəri, T.M. İbtidai siniflərdə həyat bilgisi dərslərində problem əsaslı öyrənmənin şagirdlərin tədqiqat bacarıqlarinin, məntiqi təfəkkürünün inkişafina təsiri // –Bakı: Mütərcim, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. №6, –139-142 s.
9. Orucov, S.A. Kiçik yaşlı məktəblilərdə yaranan zərərli vərdişlər, onların fəsadları və aradan qaldırılması yolları // –Bakı: Mütərcim, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. №6, –s.130-134. https://journals.arti.edu.az/uploads/f_20260112095256606820727.pdf

**Redaksiyaya daxil olub:** 20.04.2026